Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası

# Kitabxana və könüllülər - yeni imkanlar məkanı

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr*

**BAKI - 2020**

**Tərtibçi**: **N.Alışova**

**Elmi redaktor:** **K.M.Tahirov,**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **L.Əhmədova**

Kitabxana və könüllülər - yeni imkanlar məkanı: metodik tövsiyələr / Tərt. ed. N.Alışova; elmi red. K.Tahirov; red. L.Əhmədova. – Bakı, 2020. – 44 s.

**© Azərbaycan Milli Kitabxanası, 2020**

**Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır.

Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir. ASAN, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranmış, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşmışdır.

Könüllülərimiz öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs vermiş, ölkəmizdə Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar.

Bu il 5 dekabr Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş və bütün könüllüləri əhatə etmiş Könüllülük Həftəsi ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu nümayiş etdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə qərara alıram:

1. 2020-ci il Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2020-ci ilin Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 30 dekabr 2019-cu il.**

## Tərtibçidən

Könüllülərin kitabxanaların fəaliyyətinə cəlb edilməsi kitabxananın əhatə dairəsinin genişlənməsinin, maraqlı və genişmiqyaslı tədbirlərin keçirilməsinin, eləcə də kitabxananın həyata keçirdiyi sosial və kreativ yönümlü layihələrin uğurunun qarantıdır. Könüllülər kitabxana işinə yeni bir baxış, kreativ və yaradıcı fikirlər gətirə bilər. Kitabxanada könüllülərin əməyindən səmərəli bəhrələnmə bütövlükdə kitabxana xidmətinin təşkilinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

Bu vəsaitdə könüllülər ili, könüllü və könüllülük haqqında, könüllülər hərəkatının tarixi, könüllülərin fəaliyyəti barədə məlumatlar və kitabxanada könüllülərin köməyi ilə həyata keçirilən layihələr haqqında məlumat verilir. Vəsaitdə eyni zamanda bu işin təşkili ilə əlaqədar kitabxanaçılar üçün metodik tövsiyyələr və könüllülərin əməyindən istifadə imkanlarının istiqamətləri barədə təkliflər öz əksini tapmışdır.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Ünvan:** AZ-1000 Bakı ş., Xaqani küç. 57.
**E-mail:** metodik@anl.az

## Giriş

Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyev ölkəmizdə 2020-ci ilin **“Könüllülər ili”** elan edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə 2020-ci il Azərbaycanda **“Könüllülər ili”** elan edilib.

Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir.

Dünya tarixində müasir anlamda könüllü fəaliyyət anlayışına ilk dəfə XVII əsrdə Fransa ordusunda rast gəlinir. Bu anlayış könüllü hərbçi olmaq istəyən fransızların qeydə alınmasından sonra meydana çıxmışdır. Bu dövrdə Avropada şəxsi istəyi ilə hərbi xidmətə gedənləri **“volantaire”** adlandırırdılar. Latın mənşəli söz olan **“volantire”** Azərbaycan dilində **“könüllü”** deməkdir.

O dövrdə bu söz yalnız hərbi konteksdə istifadə olunurdu. XX əsrin əvvəllərindən etibarən isə (I Dünya Müharibəsindən sonra) könüllü sözü sosial fenomen kimi formalaşmağa başladı. 1881-ci ildə ABŞ-da vətəndaş müharibəsi zamanı qadınların könüllü olaraq tibb bacısı kimi fəaliyyət göstərməsi minlərlə könüllünü ətrafında birləşdirən Amerika Qırmızı Xaç Təşkilatının yaranmasına səbəb oldu. XX əsrin ikinci yarısından etibarən könüllülük, həmrəylik, sosial məsuliyyət kimi ali dəyərlər sistemləşdirilərək dünyada kütləvi sosial fəaliyyətə çevrildi.

1985-ci ildə BMT Baş Məclisi hökumətlərə hər il iqtisadi və inkişaf naminə 5 dekabr tarixini **"Beynəlxalq Könüllülər Günü"** kimi qeyd etməyi təklif etmişdir.

Sevindirici haldır ki, son illər könüllülüyün sürətlə inkişaf etdiyi ölkəmiz də könüllülük fəaliyyətinin təbliğində və inkişafında özünəməxsus rol oynayır. Azərbaycanın müstəqilliyinin bərpasından sonra qazandığı uğurlarda, şübhəsiz ki, könüllü gənclərin də payı az deyil.

Azərbaycanda könüllülük hərəkatının tarixi hələ Xürrəmilər dövründən başlayıb. Babək Azərbaycanı yadelli işğalçılardan qorumaq üçün xalqa müraciət edərək ətrafına toplaşan könüllülərlə torpaqlarımızın işğalına qarşı mübarizə aparmışdır.

Müasir Azərbaycanda isə könüllülük sahəsində inkişaf məhz ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlayıb. Belə ki, 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi fəaliyyətə başlayıb. Həmin proqram əsas götürülərək, 1998-2000-ci illərdən ölkədə könüllülük prinsipləri geniş təbliğ edilib.

2009-cu ildə "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul olunması Azərbaycanda könüllülük fəaliyyətinin inkişafında təkanverici rol oynadı. Bu qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu.

2013-cü ilə kimi könüllülük ölkədə kiçik komandalarla fəaliyyət göstərirdi. Həmin il Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) yanında aktiv və konstant könüllü təşkilat olan ASAN Könüllüləri Təşkilatı (AKT) yaradıldı. Bu hərəkat minlərlə gəncin ilkin iş təcrübəsi toplamasına, öz peşəsinin incəliklərini öyrənməsinə geniş imkan verdi.

Ölkəmizdə könüllülük hərəkatının inkişafında və bu sahədə qazanılan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rolunu xüsusilə vurğulamaq lazımdır. Məhz Mehriban xanımın əzmkar fəaliyyəti nəticəsində keçirilən mötəbər tədbirlərdə on minlərlə könüllünün fəaliyyətinə şərait yaradıldı. Ən əsası, könüllülərin əməyi yüksək qiymətləndirildi və bu gün də bu iş uğurla davam etdirilir.

Beləliklə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizdə könüllülük fəaliyyətinin inkişafına göstərdiyi yüksək diqqət və qayğı, bu sahədə əldə olunan nailiyyətlər və könüllülərin ölkəmizin inkişafında əvəzsiz xidmətləri qarşıdakı dövrdə daha böyük uğurların qazanılacağını deməyə ciddi əsas yaradır.

## Könüllü və könüllülük nədir?

Könüllülük cəmiyyətdə sosial, mədəni, iqtisadi, ekoloji problemlərin həllinə yönəlmiş və gəlir əldə etmək məqsədi daşımayan ictimai faydalı fəaliyyətdir. Könüllü fəaliyyət əhalinin həssas qruplarından olan insanlara (əlillər, qocalar, kimsəsiz uşaqlar və s.) göstərilən fiziki və mənəvi yardım, cəmiyyətdə maarifləndirmə işinin aparılması, vətəndaş fəallığının artırılması, sağlam həyat tərzinin təbliğ edilməsi, ətraf mühitin qorunması və s. məqsədlə həyata keçirilən layihə və tədbirlərdə (aksiya, kampaniyalar və s.) göstərilən təmənnasız sosial xidmətdir.

Könüllü fəaliyyət, bu fəaliyyəti həyata keçirən könüllülərin iştirakı ilə hökumət (dövlət büdcəsindən maliyyələşdirilən dövlət orqanları) və ya qeyri-hökumət təşkilatları tərəfindən təşkil edilir.

Könüllülük fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı və gəlirsiz fəaliyyət hesab olunur. Yetkinlik yaşına çatmamış şəxslər valideynlərinin və ya qanuni nümayəndələrinin razılığı əsasında könüllü fəaliyyət ilə məşğul ola bilərlər ***(Bax: "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu, Maddə 4. "Könüllü fəaliyyətin iştirakçıları").***

Bəhs etdiyimiz qanun könüllü fəaliyyətin təşkilatçılarının hüquqlarını da qoruyur (***Maddə 5. "Könüllü fəaliyyətin təşkilatçılarının hüquqları"***): *Könüllü fəaliyyətin təşkilatçıları bu Qanunla nəzərdə tutulmuş qaydada şəxsləri könüllü fəaliyyətin həyata keçirilməsinə cəlb etmək, müəyyənləşdirilmiş qaydada və əsaslarla könüllülərlə bağlanmış müqaviləyə xitam vermək, könüllülərdən müqavilədən irəli gələn öhdəliklərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini tələb etmək, görülmüş işlər haqqında könüllülərdən məlumat və ya hesabat almaq, könüllü tərəfindən vurulmuş maddi ziyanın ödənilməsi üçün Azərbay-*

*can Respublikasının Qanunvericiliyinə uyğun olaraq tədbirlər görmək.*

Könüllü fəaliyyətin iştirakçıları arasında münasibətlər tərəflər arasında yazılı formada bağlanan müqavilə ilə tənzimlənməlidir. Həmin müqavilədə tərəflər haqqında məlumatlar, tərəflərin hüquq və vəzifələri, görüləcək işlər və göstəriləcək xidmətlər, müqavilənin müddəti, tərəflərin məsuliyyəti, müqaviləyə xitam verilməsi qaydası göstərilir. Könüllü fəaliyyətin təşkilatçıları tərəfindən cəlb edilmiş könüllülərlə bağlanan müqavilədə bu Qanunun məqsədlərinə uyğun olaraq digər şərtlər də nəzərdə tutula bilər. Bu müqavilədə könüllünün hüquqlarını məhdudlaşdıran müddəaların əks olunması yolverilməzdir. Həmçinin müqaviləyə tərəflərin razılığı ilə vaxtından əvvəl xitam verilə bilər. Tərəflərdən birinin təşəbbüsü ilə müqaviləyə vaxtından əvvəl xitam verildikdə qarşı tərəfə müqavilənin xitam olunacağı haqqında xəbərdarlıq edilməlidir.

## Kitabxanada könüllülərlə işin təşkili

“Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq indi bütün sahələrdə ictimai və sosial məsuliyyəti artıran könüllülük fəaliyyəti həyata keçirilir. Bu gün demək olar ki, hər bir sahədə fəal olaraq könüllü kömək təklif edən insanlarla rastlaşa bilərsiniz. Bu istiqamət mədəniyyət müəssisələrində, xüsusilə də kitabxanalarda inkişaf etməkdədir.

Kitabxanalarda könüllü köməkçilər həmişə olub və əvvəllər onları oxucu fəalları adlandırırdılar. Bu gün də kitabxanalar regionda yaşayan əhalinin kitabxana ilə bağlı mütəmadi məlumatlandırılmasında, yeni oxucuların kitabxanaya cəlb olunmasında, ictimai tədbirlərin, aksiyaların, kitabxana proqramları və layihələrin təşkilində, məktəblilər və əhali arasında müxtəlif mövzular üzrə təbliğat işlərinin aparılmasında, istifadəçilər arasında rəy sorğularının keçirilməsində, kitabxanaya gələ bilməyən fiziki qüsurlu və yaşlı oxuculara qeyri-stasionar xidmətin göstərilməsində və digər işlərin həyata keçirilməsində könüllülərin köməyindən faydalana bilərlər.

Kitabxanalarda könüllülərlə birgə layihələrin həyata keçirilməsi kitabxanaçıların işini nəzərəçarpacaq dərəcədə asanlaşdırmaqla yanaşı, eyni zamanda oxucular üçün də bu tədbirləri daha cəlbedici edə bilər.

Könüllülük mövzusu gəncləri kitabxanaya cəlb etmək problemi ilə sıx bağlıdır. Könüllülərin, xüsusən də gənclərin kitabxanaya cəlb olunması kitabxana könüllülüyü sahəsində könüllü təşəbbüslərin inkişafına töhvə vermək, kitabxanadakı könüllülərin sayını artırmaqla yanaşı, həm də gənclərə özünü cəmiyyətə yararlı bir şəxsiyyət kimi hiss etmək, özünü inkişaf etdirmək, təcrübə toplamaq, müxtəlif insanlarla tanış olmaqla yeni dostlar qazanmaq, vaxtını səmərəli keçirmək və digər üstün keyfiyyətlər qazandıracaqdır. Kitabxananın fəaliyyətində könüllü köməkçilərin iştirakı həmçinin, kitabxanaların özləri

üçün faydalı ola bilər. Buraya kitabxana məkanının genişləndirilməsi, oxucuların və kitabxanada keçirilən tədbirlərin sayında ciddi artımın olması, yerli sakinlərlə daha çox əlaqələrin qurulması və s. daxil etmək olar.

13 yaşından yuxarı hər bir fəal şəxs könüllü olmaq imkanına malikdir. Bəzən isə azyaşlı uşaqlar da könüllü ola bilər. Bunun üçün isə ilk növbədə könüllü olmaq istəyənləri kitabxanaya cəlb etmək lazımdır. Kitabxanaya könüllülərin cəlb olunmasında **“Sən də kitabxana könüllüsü ol”** adlı müsabiqə elan edə bilərsiniz. Müsabiqənin keçirilməsində əsas məqsəd kitabxanaçıya kömək etmək istəyən və kömək edə bilən insanları bir arada toplamaqdır. Könüllülərin seçimində müsahibə, anket, test və s. metodlardan istifadə etməniz tövsiyə olunur. Müsabiqənin şərtlərini müəyyən etdikdən sonra bununla bağlı kitabxananın saytında, sosial şəbəkələrdə, yerli qəzetlərdə elan yerləşdirə bilərsiniz.

**Nümunə:**

**“Sən də kitabxana könüllüsü ol”**
**adlı könüllülük müsabiqəsi**

Müsabiqənin elanı:

*Könüllülük, birlikdə həyatın çoxşaxəli bir hissəsini təşkil edən maraqlı bir təcrübə, yeni tanışlıqlar, parlaq anlardır.*

*Kitabxana könüllüsü olmaq, uşaqlar üçün nağılların gerçəkləşməsinə kömək etmək, fiziki qüsurlu və yaşlılar üçün kitabxana xidmətləri göstərmək, istifadəçilərə yeni texnologiyaları öyrətmək, bir sözlə kitabxanaya olan sevginizi başqaları ilə bölüşmək, yeni dostlar və təcrübə qazanmaq istəyirsinizmi?*

*________ rayon (şəhər) Mərkəzləşdirilmiş Kitabxana Sistemi sizləri kitabxana könüllüləri sırasına qoşulmağa dəvət edir.*

*Müsabiqədən keçən iştirakçı kitabxanada aşağıdakı istiqamətlərdə könüllülük fəaliyyəti ilə məşğul ola bilər:*

- *Oxuculara kitabxanada ənənəvi və elektron kataloqdan, elektron kitabxanadan istifadə qaydaları ilə bağlı əməli yardımın göstərilməsi;*
- *Kitabxanaya yeni müraciət edən oxuculara kitab və mütaliə haqqında lazımi biliklərin verilməsi;*
- *Kitabxanaya gələ bilməyən fiziki qüsurlu və yaşlı oxuculara qeyri-stasionar xidmətin göstərilməsi;*
- *Əhali arasında müxtəlif istiqamətlər üzrə maariflən-dirici tədbirlərin təşkilində iştirak;*
- *Kitabxanaya gələ bilən yaşlı oxuculara informasiya texnologilarından istifadə ilə bağlı təlimlərin keçiril-məsi;*
- *Oxuculara, xüsusilə yaşlı oxuculara kitabxanaya daxil olan yeni nəşrlər haqqında operativ məlumatların verilməsində və kitabxanada keçirilən tədbirlərin təşkilində fəal iştirak;*
- *Oxuculara qlobal İNTERNET məkanında lazımi materialların axtarılmasında fəal yardım göstərmək və s.*

***Müsabiqənin şərtləri aşağıdakılardan ibarətdir:***

- *Azərbaycan dili ilə yanaşı, ən azı bir xarici dili (ingilis, rus və s.) orta səviyyədə bilmək;*
- *İntizamlılıq, xoşrəftarlılıq, ünsiyyətcillik, operativlik, kollektivdə işləmək bacarığı, kompüter bacarığı və di-gər keyfiyyətlərə sahib olmaq;*

*Müsabiqədə 16-30 yaş arası gənclər iştirak edə bilərlər. Müsabiqədən keçən iştirakçı işi və təhsili ilə əlaqədar olaraq istədiyi növbə üzrə (I, II və III növbə) fəaliyyətə qoşula bilər.*

*Müraciətlərinizi CV formasında 10 mart 2020-ci il tarixinə kimi ____ @mail.ru ünvanına göndərə bilərsiniz.*

*Unutmayın ki, hər bacarıq faydalı ola bilər!*

Könüllü seçərkən öncə fikirləşin: könüllü sizə nə üçün lazımdır, könüllü kitabxanada nə etməlidir, onlardan gözləntiniz nədir, könüllüləri necə təşviq edəcəksiniz, könüllülərin fəaliyyətini kim koordinasiya edəcək? Bütün bu suallara cavab tapdıqdan sonra könüllülərin seçiminə başlaya bilərsiniz.

Kitabxanada könüllülərin işinə rəhbərlik edən, onlara müvafiq tapşırıqlar verən və bütün suallara cavab verən məsul şəxs - **əlaqələndirici-koordinator** olmalıdır. Koordinator insanlarla ünsiyyət qurmağı, problemləri həll etməyi, yaxşı bir psixoloq olmağı bacarmalıdır. Bütün kitabxana işçilərinin könüllülük fəaliyyətinin vacibliyini başa düşmələri və könüllülərə müsbət münasibət bəsləmələri çox vacibdir. Kitabxananın (filialın) müdiri işçiləri könüllülərin köməyinə ehtiyac olduğuna inandırmalı və onlara dəstək olmalıdır.

Kitabxanada könüllülərin seçimini apardıqdan sonra könüllülərin işi ilə əlaqədar proqram hazırlamaq tövsiyə olunur. Proqramda əvvəlcədən planlaşdırılmış qaydada müxtəlif istiqamətlərdə - kitabxanalarda könüllü fəaliyyətin istiqamətləri, könüllülərin iş prinsipləri, regionlarda könüllülük fəaliyyətinin inkişaf etdirilməsi, vətəndaşlarla işin qurulması və digər bu kimi məsələlər barədə məlumatlar öz əksini tapmalı, habelə könüllüləri maraqlandıran suallar ətrafında müzakirələrin aparılması və s. nəzərdə tutulmalıdır. Daha sonra rayonun (şəhərin) təhsil müəssisələri, yerli təşkilatlar və Qeyri Hökumət Təşkilatları (QHT), gənclər təşkilatları, veteran təşkilatları, qocalar evləri və s. ilə əlaqə saxlayıb, onlara könüllülük proqramı barədə məlumat verilməli, kitabxananın saytında, sosial şəbəkələrdə, yerli qəzetlərdə proqram haqqında elan yerləşdirilməlidir.

Proqram çərçivəsində görəcəyiniz işlər haqqında plakatlar, bukletlər, flayerlər hazırlayıb həm kitabxanada nümayiş etdirə, həm də yaşadığınız ərazidə (mağazalara, banklara, tibb müəssisələrinə, məktəblərə, istirahət zonalarına və s.) paylaya

bilərsiniz. Proqramları aşağıdakı istiqamətlər üzrə hazırlamaq olar:

- *Kompyuter məşğələlərinin keçirilməsi;*
- *Maddi və qeyri maddi mədəni irs nümunələrimizin təbliği;*
- *Uşaq və gənclər arasında zərərli vərdişlərə qarşı təbliğatın aparılması;*
- *Ətraf mühitin qorunması ilə bağlı aksiyaların keçirilməsi və s.*

İşçilərin və könüllülərin fəaliyyətinin əlaqələndirilməsi, öz işlərini dəqiq bilmələri üçün birgə qrafikin hazırlanması da tövsiyə olunur.

**"Kitabxana könüllüləri qrupu"nun yaradılması.** Müsabiqədən uğurla keçən və könüllü olmaq istəyən şəxslərdən ibarət "Könüllülər qrupu"nun yaradılması könüllülük işinin əsas istiqamətlərindən biridir. Xüsusi bir könüllü qrupunun seçimi sırf fərdi olur və kitabxananın ehtiyaclarından, layihə və ya proqramın məqsəd və vəzifələrindən asılıdır. Bu gün könüllülərin əksəriyyəti uşaqlar, tələbələr və gənclərdir.

Könüllüləri şərti olaraq bir neçə qrupa bölmək olar:

- **Könüllü uşaqlar, tələbə və gənclər.** Bu qrupa mütaliəni sevən və bilik və bacarıqlarını digər şəxslərlə bölüşməyi bacaran, fəal, yaradıcı, intellektual gənclərin daxil edilməsi məsləhətdir. Bunlar kitabxana və məktəb aktivlərindən, kitabxana klublarının üzvlərindən və kitabxananın fəal daimi oxucularından seçilə bilər.
- **Könüllü müəllim, həkim və digər peşə sahibləri**. Bu qrupa kitabxanalarda müxtəlif aksiyaların, maarifləndirici, təbliğat xarakterli tədbirlərin keçirilməsi zamanı öz bilik və təcrübələrini bölüşən şəxsləri daxil etmək olar.
- **Valideynlər, təqaüdçülər.** Uşaq və gənc könüllülər həmyaşıdlarını müəyyən istiqamətlər üzrə cəlb etmək üçün daha yaxşıdır, çünki istənilən məlumat həmya-

şıdlar tərəfindən daha yaxşı qəbul edilir. Lakin bəzi hallarda kifayət qədər yaşa və gənclərlə bölüşə biləcəyi böyük bir həyat təcrübəsinə sahib olan könüllülərin işə cəlb olunması daha faydalı ola bilər.

Könüllülər qrupunu yaradarkən ilk növbədə onları həm dünyada, həm də ölkəmizdə könüllülük hərəkatının yaranma tarixi, əldə edilən uğurlar, cəmiyyətdə və kitabxanada könüllülərin, eləcə də könüllülər hərəkatının inkişafında kitabxanaların rolu, kitabxana mühitində könüllü olmaq: təcrübə, inkişaf, perspektivlər və s. istiqamətlərdə seminar-məşğələlər, təlimlər, məsləhət saatları və s. maarifləndirici tədbirlərin keçirilməsi məqsədəuyğundur.

Qrup üzvlərinin işini daha da maraqlı etmək üçün kitabxananın loqotipi və **"Könüllü"** yazısı olan döş nişanı, bəcc və s. hazırlayıb qrup üzvlərinə təqdim oluna bilər.

Könüllülər qrupunun fəaliyyətini əhali arasında daha geniş təbliğ etmək məqsədilə bu haqda kitabxananın saytında, sosial şəbəkələrdə mütəmadi olaraq paylaşımlar edilməlidir. Bu həm də yeniyetmə və gənclərin könüllü olmaq istəklərinə stimul verəcəkdir.

Kitabxanada həmçinin, **"Mən könüllüyəm"** adlı könüllülərin şəkillərinin yerləşdirildiyi məlumat stendi, ayrıca tematik rəf hazırlana bilər. Tematik rəfdə qrupun iş planı, iştirak etdikləri tədbirlərin fotoları, **"Mən könüllü olmaq istəyirəm"** adlı ərizə-anket forması *(Bax: əlavə 5),* oxucuların könüllülərin fəaliyyətləri barədə söylədikləri fikirlər, təkliflər, təşəkkür məktubları və s. yerləşdirilə bilər. Rəy və təkliflərin, təşəkkür məktublarının kitabxananın veb saytında və sosial şəbəkələrdə yerləşdirməsi də tövsiyə olunur.

Könüllülərin əməyinin qiymətləndirilməsi də könüllülük fəaliyyətində olduqca əhəmiyyətlidir. Bu, könüllülərin aldıqları yeganə **"təşəkkür"** olduğu üçün bu işə xüsusi diqqətlə yanaşmaq tövsiyə olunur. Kitabxana rəhbərliyi mütəmadi olaraq ən fəal könüllüləri həvəsləndirə, onların oxuduqları təhsil müəssi-

sələrinə, iş yerlərinə təşəkkür məktubları göndərə bilər, onları fəxri fərmanla təltif edə bilər.

İlin sonunda könüllülər qrupu ilə işləyən hər bir kitabxana öz fəaliyyətinə dair hesabat təqdim etməlidir. Hesabatda cari ilin könüllülər qrupunun tərkibi (şəxsin soyadı, adı, məktəbi, sinfi, iş yeri və s.), kitabxanada könüllülərlə birbaşa görülən işlər (fərdi söhbətlər, təlimlər, qrup müzakirələri, dərslər və s.), könüllülərin fəaliyyətinin reklamı (stendlər, məqalələr, albomlar, bukletlər, paylaşımların hazırlanması), il ərzində könüllülərin iştirakı ilə keçirilən tədbirlər, digər kitabxana işlərində könüllülərin iştirakı (aksiyalar, müsabiqələr və s.), statistik məlumatlar (cari il üçün oxucuların ümumi sayı, könüllülərin iştirakı ilə tədbirlərə qatılan oxucuların sayı, tədbirlərdən sonra kitabxanaya yeni yazılan oxucuların sayı və s.), könüllülərin işi ilə bağlı rəy və təkliflər, könüllülər qrupunun il ərzində gördüyü işlər barədə ümumi nəticələr öz əksini tapmalıdır.

**Könüllülər qrupunun sənədləri.** Kitabxanada könüllülər qrupuna aid olan sənədləri özündə əks etdirən qovluğun hazırlaması da məqsədəuyğundur. Qrupun sənədlərinə daxildir:

- *Qrupun adı, şüarı, loqotipi;*
- *Qrupun tərkibi (şəxsin soyadı, adı, təhsil aldığı yer və ya iş yeri);*
- *Qrupun il ərzində görəcəyi işlərin planı (tədbirin adı, hansı yaş qrupu, keçirildiyi tarix);*
- *Keçirilmiş tədbirlər haqqında mətn və statistik məlumatlar (iştirakçı sayı, könüllü sayı, tədbirdən sonra kitab paylanması, foto, mini-anket və s.);*
- *Könüllülərin işi ilə bağlı oxucu rəyləri;*
- *Qrupun fəaliyyəti haqqında təqdimat məhsullarının təsviri və nümunələri.*

**Könüllü qrupların fəaliyyət istiqamətləri.** Kitabxanada könüllülərin əsas fəaliyyət istiqamətlərinə ədəbi və mütaliə tədbirlərinin, teatr tamaşalarının təşkili, müxtəlif mövzulu viktorinaların, müsabiqələrin, aksiyaların keçirilməsi, ənənəvi

və virtual sərgilərin hazırlanması, kitabxanaya daxil olan yeni kitabların istifadəçilərə çatdırılması və s. işlər daxil edilə bilər.

Bundan əlavə, kitabxanada aşağıdakı işlərin həyata keçirilməsinə könüllülər cəlb edilə bilər:

- *Oxuculara stasionar və qeyri stasionar xidmət;*
- *Kitab fondu ilə iş (fiziki cəhətdən yararsız hala düşmüş kitabların bərpası, tematik məlumat qovluqlarının yaradılması, qəzet və jurnalların cildlənməsi);*
- *Kitabxanaya borclu olan oxucularla iş (borclu oxuculara zəng etmək, məktub yazmaq, onların yaşadığı ünvanlara getmək və s.);*
- *Əhali arasında kitabxananın fəaliyyəti barədə məlumatların yayılması və rəy sorğularının keçirilməsinə kömək;*
- *Kitabxananın fəaliyyəti və iş rejimi haqqında məlumat kitabçaları, vizit kartlarının paylanılması;*
- *Kitabxanaya gələ bilməyən fiziki qüsurlu və yaşlı oxuculara evdə xidmət etmək;*
- *Sosial aksiyaların (sağlam həyat tərzinin, tolerantlığın təbliğinə yönəlmiş seminarlar, ekoloji tədbirlər və s.) keçirilməsində iştirak etmək;*
- *Kömpyuter texnologiyalarından istifadədə çətinlik çəkən yaşlı oxuculara təlimlərin keçirilməsində iştirak və s.*

**"Könüllünün kitabxanası"-nın yaradılması.** Kitabxana könüllülərinin iştirakı ilə "Könüllü kitabxanası" yarada bilərsiniz. Kitabxananın yaradılmasında əsas məqsəd istifadəçilərin diqqətini həm kitabxanaya yeni daxil olan kitablara, həm də vaxtilə oxunulan lakin bu gün unudulan kitablara yönəltməkdir. Belə kitabların təbliği məqsədilə könüllülər kitabxanaçıların yardımı ilə **"Unudulmuş kitablar", "Bu kitabları oxuyun!"** başlığı altında virtual kitab sərgiləri hazırlaya bilərlər. Sərgidə az müraciət olunan, unudulan kitabların üz qabıqları ilə yanaşı,

həmin kitabların annotasiyaları və "pdf" mətnləri də yerləşdirilə bilər. Könüllülər həmçinin unudulmuş kitabların siyahısını hazırlayaraq oxucuların e-mail ünvanlarına da göndərə bilərlər. Daha sonra oxuculardan oxuduqları kitablar haqqında rəyləri toplayıb kitabxanada saxlaya bilərlər.

Könüllülər ilində kitabxanalara könüllülərlə birgə daha çox müxtəlif görüşlərin, yaradıcı layihələrin, aksiyaların, maarifləndirici tədbirlərin həyata keçirilməsi də tövsiyə olunur.

Kitabxanada könüllülər qrupu ilə birgə **"Yaxşılığa bir dəqiqə vaxt ayır"** adlı məlumat saatı da keçirilə bilər. Tədbiri könüllülərin yaxşılıq, xeyriyyəçiliklə bağlı hazırladıqları videoçarxın nümayişi ilə başlamaq, daha sonra yaxşılığın insanlararası münasibətlərin təməlində dayanan əsas prinsiplərdən biri olması, keçmişdə olduğu kimi bu gün də belə dəyərlərin yaşadılması və gələcək nəsillərə çatdırılması haqqında danışmaq, bu işdə könüllülərin iştirakından bəhs etmək, sonra kitab sərgisinə baxış da təşkil etmək mümkündür. Məlumat saatının sonunda iştirakçılara **"2020-ci il Könüllülər ilidir"** adlı broşuralar, bukletlər də paylamaq olar.

Könüllülər ili ilə əlaqədar olaraq kitabxanada **"Könüllülər Yurdu Azərbaycan"** adlı layihə də hazırlana bilər. Layihənin hazırlanmasında əsas məqsəd region gəncləri arasında könüllülüyün təbliği, onların asudə vaxtlarının daha düzgün qiymətləndirmələri istiqamətində təbliğat aparılması, gənclərin fərdi və intellektual inkişafına təkan verilməsi, mövcud imkanlar barədə məlumatlandırılma, o cümlədən könüllülük hərəkatının ölkəmizdə daha geniş vüsət almasını stimullaşdırmaqdır.

Aprel döyüşləri, 20 Yanvar Ümumxalq hüzn günü, XX əsrin faciəsi Xocalı, eləcə də düşmən tapdağı altında olan torpaqlarımızın işğal olunduğu günlərdə könüllülərlə birgə **"Şəhidlər ölməz, Vətən bölünməz"** adlı vətənpərvərlik aksiyası keçirə bilərsiniz. Aksiyada könüllülərin ifasında vətənpərvərliklə bağlı hekayə və şeirlər səsləndirilə, tamaşalar göstərilə

bilər. Bir qrup fəal oxucular isə virtual kitab sərgisi hazırlaya bilər, kitabxanaya gələn qonaqları və istifadəçiləri, ilk növbədə, uşaqları sərgidə təqdim olunan ədəbiyyatla tanış olmağa və sevdikləri əsərləri ucadan oxumağa dəvət edə bilərlər.

"**Əsgərə hədiyyə"** aksiyasında iştirak. Orduya dəstək ümummilli iş olduğu üçün bayram ərəfəsində kitabxana könüllüləri əsgərlərə sovqat hazırlaya, gənc əsgərlərə məktublar yaza və hərbi hissələrdə əsgərlərlə keçirilən görüşlərdə iştirak edə bilərlər. Bu aksiyanın yeniyetmə və gənclərin milli şüuruna və vətənpərvərlik hisslərinə çox müsbət təsiri ola bilər.

**5 dekabr Beynəlxalq Könüllülər Günündə** keçirilən tədbirlərdə könüllülük fəaliyyəti haqqında gənclərə ətraflı məlumat verilməli, könüllülük fəaliyyətinin gənclərin fərdi inkişafında əvəzsiz rol oynadığı və mövcud fəaliyyətin həm də bütün Azərbaycanın gələcəyi üçün atılmış addım olduğu xüsusi vurğulanmalıdır. Tədbir çərçivəsində "**Ərazinin abadlaşdırılmasında iştirak edək!", "Hərəyə bir ağac əkək!"** adlı aksiyalar keçirmək olar. Aksiyada könüllülərin köməyilə kitabxananın ətrafında ekoloji təmizlik işlərinin aparılması, yaşlı insanlara məişət işlərində kömək etmək olar. Tədbirdə kitabxanada könüllülük fəaliyyətini əks etdirən sərginin təqdimatı, beynəlxalq təcrübəyə həsr olunmuş filmlərin nümayişi də məqsədəuyğundur.

Sağlam həyat tərzinin təbliği, pis vərdişlərin, narkomaniyanın, siqaretin qarşısının alınması məqsədilə könüllü gənclərlə birgə **"Biz narkotiklərin əleyhinəyik"** adlı maarifləndirici etiraz aksiyası keçirilə bilər. 26 iyun Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə günündə keçirilən aksiya zamanı kitabxanada **"Narkomaniya dəhşətli bəladır"** adlı videoçarxın nümayişi, **"Gənclər üçün tələ"** adlı sərgi-icmalın təşkili, "**Siqaret öldürür"** adlı sərginin tərtibi, **"Pis vərdişlərə yox deyək!"** adlı söhbətlər keçirilə bilər. Tədbirlər vasitəsilə sağlamlıq, alkoqolun ziyanı, narkomaniya, siqaret çəkmə, maddə asılılığı, psixoaktiv

maddələrin istifadəsinin nəticələri, narkotik istifadəsi və ticarəti ilə əlaqəli cinayətlər və cinayət məsuliyyətləri haqqında məlumatlar da verilə bilər.

1 Dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günündə keçirilən **"Özünü HİV/AİDS-dən qoru"** adlı kampaniya çərçivəsində könüllülər rayonun (şəhərin) gənclər təşkilatı tərəfindən hazırlanmış broşuraları tədbir iştirakçılarına paylaya bilər.

2 Fevral Gənclər günündə gənc kitabxana könüllüləri ilə birgə **"Görüş yeri kitabxanadır**!" adlı aksiya keçirmək olar. Aksiyada 2 Fevral Gənclər gününün tarixi, ölkəmizdə həyata keçirilən gənclər siyasəti ilə bağlı iştirakçıları məlumatlandırmaq və gənclərə müraciət edərək könüllü dəstəsi sıralarına qoşulmağa dəvət etmək olar.

Kiçik yaşlı uşaqlarla birgə **"Könüllülər kimdir?"** adlı məlumatlandırıcı və maarifləndirici söhbət keçirmək olar. Söhbətdə kiçikyaşlıları ölkəmizdə könüllülər hərəkatının tarixi, könüllülərin fəaliyyətinin əsas istiqamətləri ilə tanış edə bilərsiniz. Könüllülər ili çərçivəsində keçirilən bütün tədbirlər uşaqlarda ümumbəşəri mənəvi dəyərlərə hörmət formalaşdırmalı, xeyirxah və insanpərvər işlər görmək motivasiyasının inkişafına şərait yaratmalıdır.

Kitabxanaya gələ bilməyən fiziki qüsurlu, yaşlı oxucular üçün **səyyar kitabxana** xidmətlərinin həyata keçirilməsi işinə könüllüləri cəlb edə bilərsiniz. Səyyar xidmət fiziki qüsurlu və yaşlı oxuculara kitabxana xidmətinin daha operativ və ən əlverişli üsuludur. Çünki, səyyar kitabxanalar bir tərəfdən kitabxananın fəaliyyətini genişləndirir, digər tərəfdən isə kitabxanaya gələ bilməyən oxucuların kitabxana xidməti ilə əhatə olunması üçün şərait yaradır. Könüllülər səyyar xidmət zamanı həssas qrupdan olan insanları dünyada baş verən yeniliklərlə, elmi texniki nailiyyətlərlə, informasiya texnologiyalarına aid ədəbiyyatlarla tanış etmək məqsədilə informasiya xarakterli "Kitabxana bülleteni" və ya "Yeni kitablar" adlı məlumat nəşrləri hazırlaya bilərlər. Belə nəşrlərdə kitabxanaya yeni daxil olan kitab, qəzet

və jurnallar barəsində qısa məlumatlar verilir ki, bu da yenilikləri izləməkdə olan oxucular üçün faydalıdır. Məlumat xarakterli "Kitabxana bülleteni" kitabxanaların saytlarında da yerləşdirilməlidir. Bu zaman kitabxanaya gəlmək iqtidarında olmayan fiziki qüsurlu və yaşlı oxucular da kitabxanaya yeni daxil olan ədəbiyyatlar barəsində məlumatlana bilərlər. Səyyar xidmət zamanı kitabxana könüllüləri həmçinin tək yaşayan, kimsəsiz qocalar, müharibə veteranları üçün evlərdə fərdi oxu saatları da təşkil edə bilərlər. Fərdi oxu zamanı könüllü xidmət edəcəyi şəxsləri öncədən təyin etməli və onların marağına uyğun bir neçə kitab seçməlidir. Daha sonra həmin şəxslərlə razılaşdırılmaqla müəyyən olunmuş vaxtlarda fərdi oxunu təkrar keçirmək olar.

Kitabxananızda bu istiqamətdə könüllüllərlə iş apararkən Milli Kitabxananın nəzdində fəaliyyət göstərən Açıq Kitabxananın könüllülük fəaliyyətindən yararlana bilərsiniz. Belə ki, Açıq Kitabxananın fəallarından ibarət "Könüllülər qrupu"nun üzvləri mütamadi olaraq fiziki qüsurlu və əlilliyi olan oxuculara mütaliə üçün kitablar aparır, görmə qabiliyyəti məhdud olan oxuculara audio kitablar təqdim edir, müəyyən kitabları onlar üçün ucadan oxuyurlar.

Milli Kitabxanada və onun nəzdində fəaliyyət göstərən Açıq Kitabxanada gəncləri kitabxanaya cəlb etmək, gənclərin asudə vaxtını səmərəli təşkil etmək, onlar arasında bədii ədəbiyyatın təbliğini gücləndirmək məqsədilə "Könüllülər qrupu"nun fəal iştirakı ilə bir sıra tədbirlər həyata keçirilmişdir. Bu qrup fəal oxuculardan, universitet tələbələrindən, kitabxananı və kitabı sevən oxuculardan təşkil edilmişdir.

"Könüllülər qrupu" Milli Kitabxanada, eləcə də Açıq kitabxanada keçiriləcək tədbirləri sosial şəbəkələrdə paylaşır və öz oxuduqları maraqlı kitablar haqqında fikir mübadiləsi edirlər. Bu da gənclər arasında mütaliənin təbliğini genişləndirir. Qrupun fəal iştirakı ilə həmçinin, fiziki qüsurlu və əlilliyi olan oxuculara ev şəraitində mütaliə üçün kitablar aparılır, Açıq

Kitabxanada isə gözdən əlil oxuculara səsli şəkildə kitablar təqdim edilir.

Qrupun iştirakı ilə Açıq Kitabxanada gənc yazarların - Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü, BDU-nun doktorantı Ülvi Aydının "Eşqin səsi", "Gənc Ədiblər Məktəbi-2"nin müdavimi, Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü, Azərbaycan Respublikası Prezidenti fondunun təqaüdçüsü Xəyalə Sevilin "Soldan birinci küçə", Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü Ramil Əhmədin "İki Şəhərin Yazıları" adlı kitablarının təqdimatı və imza mərasimi keçirilmişdir.

"Könüllülər qrupu" eyni zamanda Milli Kitabxanada və eləcə də Açıq Kitabxanada təşkil edilmiş "20 yanvar faciəsi", "Xocalı soyqırımının ildönümü", "31 mart - Azərbaycanlıların soyqırımı Günü", "23 aprel - Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü", "5 May - Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günü", "28 may - Respublika Günü", "9 may - Faşizm üzərində Qələbə Günü" və s. sərgilərin və tədbirlərin təşkilində, o cümlədən Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəyilə "Aytam" uşaqların mədəni maarifləndirilməsi İctimai Birliyi və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə Azərbaycan şairi və mütəfəkkiri İ.Nəsiminin 650 illik yubileyi ilə əlaqədar keçirilmiş tədbirlərdə də fəal iştirak etmişdir.

İl ərzində yeniyetmələrin, gənclərin mütaliəyə cəlb edilməsi ilə əlaqədar, əhali və geniş ictimaiyyət arasında kitabın təbliği, mütaliə mədəniyyəti formalaşdırmaq və Açıq kitabxanaya potensial oxucu cəlb etmək məqsədilə "Kitab və biz","Gəlin kitab oxuyaq", "Evlərə kitab ataq", "Ən çox oxunan kitablar" layihələri Könüllülər qrupunun iştirakı ilə daha da genişlənmişdir.

Könüllü iş sahələrindən biri də məlumat və biblioqrafik fəaliyyətdir. Kitabxanada yaşlı insanların sosial təcrid və tənhalığının aradan qaldırması, onların aktiv həyata qoşulması,

nəsillər arasında qarşılıqlı əlaqənin inkişafına kömək göstərilməsi məqsədilə layihə həyata keçirilə bilər. Belə layihələrin ən maraqlısı kitabxanaya gələn yaşlı istifadəçilər üçün könüllülər tərəfindən kompüter kurslarının keçirilməsidir. Bunun üçün kitabxana yuxarı sinif şagirdlərinin köməyilə könüllülər məktəbi təşkil edib, yaşlı insanlar üçün orta səviyyədə kompüter savadlılığı dərsləri təşkil edə bilərlər. Dərslərdə könüllülərlə birlikdə yaşlılar üçün kompüter savadlılığı və İnternet resurslarından istifadə mövzularında praktik və nəzəri dərslər keçirə, yaşlılar üçün aktiv və faydalı istirahət təşkil edilə bilər. Bu təlimin nəticəsində gənc kitabxana könüllüləri yaşlı kitabxana istifadəçilərinə kitabxananın saytından, müxtəlif axtarış sistemlərindən istifadə etməyi, elektron poçt ünvanı yaratmağı, İnternet vasitəsilə məktub göndərməyi, sosial şəbəkələrdə və skype proqramında ünsiyyət qurmağı öyrədə bilərlər.

Yaşlı, fiziki məhdudiyyətli insanların pensiya, tibbi və sosial xidmətlər, hüquq və güzəştlər barədə təminat məsələləri ilə bağlı hüquqi maariflənməyə böyük ehtiyacları vardır. Belə insanların hüquqları, bu sahədə olan yeniliklərin, qanunvericilik aktlarının oxucuların nəzərinə çatdırılmasında könüllülərin fəaliyyətindən istifadə etmək olar.

Könüllülər kitabxanaçıya kömək etməklə özləri üçün böyük fayda əldə edirlər: ideyalarını və layihələrini həyata keçirirlər, özlərini yeni rollarda sınayırlar, peşə fəaliyyətlərində təcrübə qazanırlar, yeni dostlar tapırlar, ünsiyyətcil və təşkilatçılıq qabiliyyətlərini həyata keçirirlər. Ən əsası isə gələcək karyeralarının qurulmasında mühüm əhəmiyyətə malik olan təcrübə əldə edirlər.

Könüllülük hər zaman cəmiyyətdə əsas rol oynayıb. Bu gün könüllülük bir tendensiya və gənclik fəaliyyətinin aktual formasıdır. Könüllü olmaq həqiqətən maraqlıdır və hər kəsin könüllü ola bilməsi əhəmiyyətlidir.

## Nəticə

Son üç-dörd il ərzində kitabxana həyatındakı hadisələri təhlil edərək belə bir nəticəyə gəlirik: kitabxanada könüllü olmağın gələcəyi var.

Kitabxana işinin müxtəlif sahələrində iştirak edən, yaşından, sosial mənsubiyyətindən asılı olmayaraq könüllülər daim zənginləşir, intellektual, mənəvi, yaradıcılıq potensialını inkişaf etdirir. Könüllülər kitabxana ilə yerləşdiyi ərazinin, şəhərin və ya kəndin sakinləri arasındakı əlaqələri genişləndirir.

Kitabxanada işləyən könüllünün kitabxanaya, kitaba və mütaliəyə baxışı dəyişir, kitabxana xidməti və kitablar sakinlərə daha da yaxınlaşır, onlar üçün əlçatan olur, kitab və mütaliənin əhəmiyyəti göz önündə daha da artır. Əksər könüllülərin, ətrafdakı kitabxanaçılardan fərqli olaraq kitabxanaya və onun vəzifələrinə daha yeni baxışları ola bilər. Belə yanaşma yeni fikir və təkliflərin mənbəyinə çevrilə bilər.

Kitabxanada könüllülərin köməyindən istifadə mövcud xidmətlərin qorunması ilə yanaşı, istifadəçilərə yeni texnologiyalara əsaslanan xidmətlər təklif etməyə kömək edir.

Könüllülərin köməyi ilə kitabxananın həyata keçirdiyi bəzi layihələrdə iştirak edə bilməyən sağlamlıq imkanı məhdud fiziki qüsurlu insanlara evlərdə səyyar kitabxana xidməti təşkil edilir.

## Əlavələr

**Əlavə 1**

### "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu

**Maddə 1. Qanunun məqsədi**

Bu Qanun hüquqi və fiziki şəxslərin əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti sahəsində yaranan münasibətləri tənzimləyir.

**Maddə 2. Əsas anlayışlar**

2.1. Könüllü fəaliyyət - Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı və gəlirsiz fəaliyyətdir.

2.2. Könüllü - öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti şəxsən həyata keçirən Azərbaycan Respublikasının vətəndaşı, əcnəbi və ya vətəndaşlığı olmayan şəxsdir.

2.3. Könüllü fəaliyyətin təşkilatçısı – könüllü fəaliyyətin təşkilini və həyata keçirilməsini təmin edən dövlət orqanları, dövlət büdcəsindən maliyyələşən təşkilatlar, yerli özünüidarə orqanları və qeyri-hökumət təşkilatlarıdır.

2.4. Əvəzi ödənilməyən fəaliyyət - əmək haqqı ödənilməyən fəaliyyətdir.

**Maddə 3. Könüllü fəaliyyətin istiqamətləri**

3.0. Könüllü fəaliyyət aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

3.0.1. əlillərə, kimsəsizlərə, qocalara, aztəminatlı ailələrə, qaçqınlara və məcburi köçkünlərə kömək edilməsi;

3.0.2. insanpərvərliyin və dözümlülüyün təbliği;

3.0.3. istehlakçıların hüquqlarının qorunması;

3.0.4. hüquqi və mədəni maarifləndirmə;

3.0.5. uşaq və gənclərin təhsili, tərbiyəsi, fiziki və əqli inkişafı;

3.0.6. idmanın inkişafı;

3.0.7. xəstəliklər və epidemiyalar barədə məlumatlandırma;

3.0.8. sağlam həyat tərzinin təbliği;

3.0.9. ətraf mühitin mühafizəsi;

3.0.10. tarix və mədəniyyət abidələrinin, mədəni və mənəvi irsin qorunması;

3.0.11. silahlı münaqişələr, təbii fəlakətlər, sənaye qəzaları, yanğınlar, epidemiyalar, epizootiyalar və digər fövqəladə halların nəticələrinin aradan qaldırılmasına, o cümlədən fövqəladə hallar nəticəsində zərər çəkmiş şəxslərə yardım göstərilməsi;

3.0.12. cəzaçəkmə müəssisələrindən azad edilən, narkotik asılılığa düçar olan, məişət zorakılığına məruz qalan şəxslərə və çətin həyat şəraitində olan digər şəxslərə (ailələrə) kömək edilməsi; ***(Bu maddəyə dəyişiklik edilmişdir. Bax: səh.33 )***

3.0.13. Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olmayan digər fəaliyyət sahələri.

**Maddə 4. Könüllü fəaliyyətin iştirakçıları**

4.1. Könüllü fəaliyyətin iştirakçıları könüllü fəaliyyətin təşkilatçılarından və könüllülərdən ibarətdir.

4.2. Şəxs öz iş yerində könüllü fəaliyyətlə məşğul ola bilməz.

4.3. Könüllünün işçi çatışmazlığının qarşısını almaq məqsədi ilə istifadəsinə yol verilmir.

4.4. Kommersiya hüquqi şəxslərində könüllü fəaliyyətin həyata keçirilməsinə yol verilmir.

4.5. Könüllü fəaliyyətin iştirakçıları arasında münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyinə və könüllü fəaliyyətin təşkilatçıları tərəfindən cəlb edilmiş könüllülər ilə bağlanan müqaviləyə uyğun olaraq tənzimlənir.

4.6. Yetkinlik yaşına çatmamış şəxslər valideynlərinin və ya qanuni nümayəndələrinin razılığı əsasında könüllü fəaliyyət ilə məşğul ola bilərlər.

4.7. Yetkinlik yaşına çatmamış şəxslər könüllü fəaliyyəti həyata keçirərkən yaşı 18-dən az olan işçilərin əməyindən istifadəyə dair Azərbaycan Respublikasının əmək qanunvericiliyində nəzərdə tutulmuş tələblərə riayət olunmalıdır.

**Maddə 5. Könüllü fəaliyyətin təşkilatçılarının hüquqları**

5.0. Könüllü fəaliyyətin təşkilatçıları aşağıdakı hüquqlara malikdir:

5.0.1. bu Qanunla nəzərdə tutulmuş qaydada şəxsləri könüllü fəaliyyətin həyata keçirilməsinə cəlb etmək;

5.0.2. bu Qanunla müəyyənləşdirilmiş qaydada və əsaslarla könüllülərlə bağlanmış müqaviləyə xitam vermək;

5.0.3. könüllülərdən müqavilədən irəli gələn öhdəliklərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini tələb etmək;

5.0.4. görülmüş işlər haqqında könüllülərdən məlumat və ya hesabat almaq;

5.0.5. könüllü fəaliyyət həyata keçirilərkən könüllü tərəfindən vurulmuş maddi ziyanın ödənilməsi üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq tədbirlər görmək.

**Maddə 6. Könüllü fəaliyyətin təşkilatçılarının vəzifələri**

6.0. Könüllü fəaliyyətin təşkilatçılarının vəzifələri aşağıdakılardır:

6.0.1. könüllü fəaliyyətin həyata keçirilməsinə cəlb edilmiş şəxslərlə müqavilə bağlamaq;

6.0.2.könüllülərə onların hüquq və vəzifələrini izah etmək, onları təlimatlandırmaq;

6.0.3. könüllü fəaliyyətin həyata keçirilməsi haqqında informasiyanı açıqlamaq, könüllü fəaliyyətin nəticələri barədə məlumat vermək;

6.0.4. könüllünün tələbi ilə könüllü fəaliyyət haqqında müvafiq arayışlar vermək;

6.0.5. könüllüləri yerinə yetirəcəkləri işin həyat və sağlamlıq üçün təhlükəli olması barədə məlumatlandırmaq;

6.0.6. könüllünün həyat və sağlamlığını sığorta etmək;

6.0.7. könüllüləri həyat və sağlamlıq üçün təhlükəli işlərə göndərərkən onların texniki təhlükəsizliklə bağlı müvafiq təlim keçmələrini təmin etmək;

6.0.8. könüllü fəaliyyətin təşkili üçün tələb olunan hüquqi, təşkilati və texniki məsələləri həll etmək;

6.0.9. könüllülərə qarşı ayrı-seçkiliyə yol verməmək;

6.0.10. könüllü əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barədə müvafiq icra hakimiyyəti orqanına məlumat vermək.

**Maddə 7. Könüllülərin hüquqları**

7.1. Könüllülərin aşağıdakı hüquqları vardır:

7.1.1. müqaviləyə uyğun olaraq həyat və sağlamlığının mühafizəsini təmin edən əmək şəraitinin yaradılmasını, zəruri hallarda isə əməyin mühafizəsinin normaları və qaydaları haqqında təlim keçirilməsini tələb etmək;

7.1.2. könüllü fəaliyyətin şərtləri və xarakteri haqqında informasiya əldə etmək;

7.1.3. könüllü fəaliyyət haqqında informasiya yaymaq;

7.1.4. könüllü fəaliyyətin təşkilatçılarından görülən işlərin yeri, həcmi, xarakteri və vaxtı göstərilməklə, könüllü fəaliyyət haqqında yazılı arayış almaq;

7.1.5. könüllü fəaliyyət könüllünün daimi yaşadığı yaşayış məntəqəsinin hüdudlarından kənarda həyata keçirildikdə gündəlik xərclərin ödənilməsini könüllü fəaliyyətin təşkilatçılarından tələb etmək;

7.1.6. könüllü fəaliyyəti həyata keçirərkən həyatına və sağlamlığına dəymiş zərərin əvəzini könüllü fəaliyyətin təşkilatçılarından almaq;

7.1.7. sığorta olunmaq;

7.1.8. öz əmlakından istifadəyə görə kompensasiya almaq.

7.2. Şəxsin könüllü fəaliyyətlə məşğul olması ünvanlı dövlət sosial yardımının alınmasına, habelə ona işsizlikdən sığorta ödənişinin ödənilməsinin dayandırılmasına və ya xitam verilməsinə səbəb olmur. ***(Bu maddəyə dəyişiklik edilmişdir. Bax: səh. 34 )***

**Maddə 8. Könüllülərin vəzifələri**

8.0. Könüllünün əsas vəzifələri aşağıdakılardır:

8.0.1. işlərin görülməsi üçün cəlb edildikdə könüllü fəaliyyətin təşkilatçıları ilə müqavilə bağlamaq;

8.0.2. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq əməyin mühafizəsi və təhlükəsizlik qaydalarına riayət etmək;

8.0.3. fəaliyyət göstərdiyi təşkilatın intizam qaydalarına riayət etmək;

8.0.4. könüllü fəaliyyət təşkilatçılarının tələbi ilə könüllü fəaliyyət haqqında məlumat və ya hesabat təqdim etmək;

8.0.5. könüllü fəaliyyət haqqında müqavilənin şərtlərinə və könüllü fəaliyyətin təşkilatçılarının müqavilənin şərtlərinə uyğun göstərişlərinə əməl etmək;

8.0.6. vurduğu maddi ziyana görə məsuliyyət daşımaq;

8.0.7. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş konfidensial informasiyanı gizli saxlamaq.

**Maddə 9. Könüllü fəaliyyət münasibətlərini tənzimləyən müqavilə**

9.1. Könüllü fəaliyyətin iştirakçıları arasında münasibətlər tərəflər arasında yazılı formada bağlanan müqavilə ilə tənzimlənir.

9.2. Könüllü fəaliyyətin təşkilatçıları tərəfindən cəlb edilmiş könüllülərlə bağlanan müqavilədə aşağıdakılar göstərilir:

9.2.1. müqavilə bağlayan tərəflər haqqında məlumatlar;

9.2.2. tərəflərin hüquq və vəzifələri;

9.2.3. görüləcək işlər və göstəriləcək xidmətlər;

9.2.4. müqavilənin müddəti;

9.2.5. tərəflərin məsuliyyəti;

9.2.6. müqaviləyə xitam verilməsi qaydası.

9.3. Könüllü fəaliyyətin təşkilatçıları tərəfindən cəlb edilmiş könüllülərlə bağlanan müqavilədə bu Qanunun məqsədlərinə uyğun olaraq digər şərtlər də nəzərdə tutula bilər.

9.4. Könüllü tərəfindən könüllü fəaliyyətin həyata keçirilməsi ilə bağlı üçüncü şəxslərə vurulmuş zərərin ödənilməsi qaydası müqavilə ilə müəyyən olunur.

9.5. Müqavilədə könüllünün hüquqlarını məhdudlaşdıran müddəaların əks olunması yolverilməzdir.

9.6. Müqaviləyə tərəflərin razılığı ilə vaxtından əvvəl xitam verilə bilər. Tərəflərdən birinin təşəbbüsü ilə müqaviləyə vaxtından əvvəl xitam verildikdə qarşı tərəfə müqavilənin xitam olunacağı haqqında xəbərdarlıq edilməlidir.

9.7. Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməməsinə dair əsaslar olduqda tərəflər müqaviləyə xitam verə bilərlər.

9.8. Müqavilə üzrə tərəflər arasında yaranan mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll edilir.

**Maddə 10. Könüllü fəaliyyət sahəsində beynəlxalq əlaqələr**

10.1. Azərbaycan Respublikasında könüllü fəaliyyətin təşkilatçıları Azərbaycan Respublikasının ərazisində könüllü fəaliyyəti həyata keçirmək üçün xarici könüllüləri dəvət edə bilərlər.

10.2. Beynəlxalq könüllü fəaliyyətin təşkilatçıları, habelə könüllü əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan

Respublikasının ərazisində könüllü fəaliyyətlə yalnız Azərbaycan Respublikasının könüllü fəaliyyət təşkilatçıları ilə birgə məşğul ola bilərlər.

10.3. Azərbaycan Respublikasında könüllü fəaliyyətin təşkilatçıları və Azərbaycan Respublikasının vətəndaşları xarici dövlətin ərazisində həmin dövlətin qanunvericiliyinə uyğun olaraq könüllü fəaliyyət ilə məşğul ola bilərlər.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 9 iyun 2009-cu il

**Əlavə 2**

## "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişiklik və əlavələr

### "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununu "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır**:

"Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 504) 3.0.12-ci maddəsində **"şəxslərə"** sözündən sonra **"və çətin həyat şəraitində olan digər şəxslərə (ailələrə)"** sözləri əlavə edilsin.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 22 fevral 2013-cü il

**Əlavə 3**

### “Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, “Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının Qanununu “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

“Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 504; 2013, № 3, maddə 224) 7.2-ci maddəsində **“işsizlik müavinətinin”** sözləri **“işsizlikdən sığorta ödənişinin”** sözləri ilə əvəz edilsin.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 24 aprel 2018-ci il

**Əlavə 4**

## "Könüllülər ili" ilə əlaqədar kitabxananın fəaliyyət planı"nın nümunəsi

| Tədbirin forması | Tədbirin adı | İcra müddəti | Kitabxananın adı |
|---|---|---|---|
| | **Sərgilər** | | |
| Kitab sərgisi | "2020-ci il könüllülər ilidir" | İl boyu | ------ rayon (şəhər) Mərkəzləşdirilmiş Kitabxana Sistemi üzrə |
| Sərgi-söhbət | "Baxım, kömək, mərhə-mət" | Yanvar | --- Kitabxana filialı |
| Sərgi-viktorina | "Vətənimizlə fəxr edirik!" | Mart | --- Kitabxana filialı |
| Foto-sərgi | "Azərbaycanda könüllülər hərəkatı" | Aprel | --- Kitabxana filialı |
| Virtual kitab sərgisi | "Biz Azərbaycan könüllüləriyik!" | May | --- Kitabxana filialı |
| Virtual kitab sərgisi | "Bütün ürəyinizlə yaxşılıq edin!" | İyun | --- Kitabxana filialı |
| Sərgi söhbət | "Könüllü olmaq şərəfdir, onlar böyük bir ürəyə sahibdirlər" | İyul | Uşaq şöbəsi |
| Sərgi - çağırış | "Könüllülük əladır!" | Avqust | ------- |
| Kitab sərgisi | "Yaxşı işlər görərək dünyanı daha yaxşı bir yerə çevirək" | Sentyabr | --- Kitabxana filialı |

| | | | |
|---|---|---|---|
| Sərgi çağırış | "Könüllülük cəmiyyətin vətəndaş potensialıdır!" | Oktyabr | --- Kitabxana filialı |
| Uşaqların əl işlərindən ibarət rəsm sərgisi | "Biz könüllülərik!" | ------- | Uşaq şöbəsi |
| Sərgi-söhbət | "İsti söz yaxşı bir əməldir" | Noyabr | --- Kitabxana filialı |
| Sərgi-diskusiya | "Azərbaycanda könüllülük hərakatı" | ------- | --- Kitabxana filialı |
| Kitab sərgisi | "5 dekabr - Beynəlxalq Könüllülər Günüdür" | Dekabr | --- Kitabxana filialı |
| Sərgi icmal | "Könüllülər, cəmiyyətə fayda verir" | Dekabr | Uşaq şöbəsi |
| **Könüllülük - Əməksevərliyin, insansevərliyin dəyəridir** | | | |
| Məlumat Saatı | "Könüllülük haqqında məlumat əldə edin" | Yanvar | --- Kitabxana filialı |
| ----------- | "Yaxşı əməllərdən başla!" | Mart | --- Kitabxana filialı |
| Vətən bilikləri saatı | "Azərbaycan könüllüləri: onlar kimlərdir?" | May | --- Kitabxana filialı |
| Dəyirmi masa | "Könüllülərin kim olduğunu öyrənin" | İyun | --- Kitabxana filialı |
| --------- | "Yaxşılıq etməyə tələsin!" | Avqust | --- Kitabxana filialı |

| | | | |
|---|---|---|---|
| Onlayn seminar | "Gənclərin könüllü hərəkatı: sosial əhəmiyyətli layihələr" | Sentyabr | --- Kitabxana filialı |
| Təqdimat slaydı | "Mən könüllüyəm!" | Oktyabr | --- Kitabxana filialı |
| Oxucularla söhbət | "İnsanlara sevinc vermək üçün insan mehriban və nəzakətli olmalıdır" | ------- | --- Kitabxana filialı |
| Məlumat bələdçisi | "Könüllülük bir həyat tərzidir!" | Noyabr | --- Kitabxana filialı |
| Məlumat saatı | Könüllülərin yaxşı işləri | ------- | --- Kitabxana filialı |
| Foto hesabat | "Başqalarına kömək etmək, özümüzə kömək etməkdir" (Kitabxana Könüllülərinin il ərzində gördükləri işlərin fotolarından ibarət sərgi) | Dekabr | --- Kitabxana filialı |
| **Aksiyalar** | | | |
| "Kitab ən yaxşı hədiyyədir" | | Aprel | ----- Kitabxana filialı |
| "Aprel döyüşləri! Mən xalqımla fəxr edirəm!" | | May | ----- Kitabxana filialı |
| "Gəlin şəhəri daha təmiz edək, ərazini daha da gözəlləşdirək" | | İyun | ---Kitabxana filialı |
| "Könüllü olmusunuz?" | | Avqust | ---Kitabxana filialı |
| "Sevdiyiniz kitaba ikinci bir həyat verin" | | Noyabr | ---Kitabxana filialı |

| | | | |
|---|---|---|---|
| “Uşaqlara sevinc bəxş et” | | Dekabr | Uşaq şöbəsi |
| **“Könüllülər, irəli!” (Gənc oxuyanlar layihəsi çərçivəsində):** | | | |
| Gənclər üçün könüllülər qrupu tərəfindən tematik tədbirlərin təşkili, hazırlanması və keçirilməsi | “Düşün və hərəkət et!” | İl boyu | ----- rayon (şəhər) Mərkəzləşdirilmiş Kitabxana Sistemi üzrə |
| Fiziki qüsurlu uşaqlar üçün nağıl saatı | “Sizə kitab oxuya bilərəmmi?” (Beynəlxalq Uşaq Kitab Günü ) | ------ | ------ |
| --------------- | “Mənə bir nağıl danış” (Beynəlxalq Əlillər Günü ilə əlaqədar) | ------- | ------ |
| Sosial layihə | “Könüllülər bizik və bu, insanlara təmənnasız kömək etmək deməkdir!” (Kitabxanaya gələ bilməyən yaşlı oxuculara kitabxana xidmətinin təşkili) | ------- | -------- |
| **Könüllülər qrupu diyarşünaslıq layihəsi çərçivəsində** | | | |
| Məlumat axtarış yürüşü (diyarın tarixinin öyrənilməsi üçün yerli sakinlərlə, o cümlədən yaşlılarla ünsiyyət) | “Mənim diyarım!” | İl boyu | ----- rayon (şəhər) Mərkəzləşdirilmiş Kitabxan Sistemi üzrə |
| Sosial və maarifləndirici yürüş | “Mən könüllüyəm!” | ------ | ------ |

| | | | |
|---|---|---|---|
| müəssisələrdə tədbirlərin keçirilməsinə kömək) | | | |
| Ekoloji yürüş (kitabxanaya yaxın sahənin abadlaşdırılması) | “Təmiz küçə-Abad məhəllə” | ------ | ------ |
| Mədəni və əyləncəli yürüş (rayon sakinləri üçün yay fəaliyyətinin təşkilində kömək) | “Salam, günəşli yay!” | Avqust | --- Kitabxana filialı |
| Kitab Sərgisi | “Biz azərbaycan könüllüləriyik!” | Fevral | --- Kitabxana filialı |
| Ən yaxşı məhəllə könüllüsü üçün müsabiqə | “Könüllü – 2020” | İl boyu | ----- rayon (şəhər) Mərkəzləşdirilmiş Kitabxan Sistemi üzrə |

**Əlavə 5**

## Könüllünün ərizə-anket forması

*Adınız:_______Soyadınız:________Atanızın adı:__________*
*Ünvanınız:__________ Doğum tarixi:______ Yaşınız:______*
*Şəxsiyyət vəsiqəsinin nömrəsi:_____ Kim tərəfindən verilmiş-dir:__________________________________________________*
*Tel.:____________________ E-mail:______________________*
*Təhsiliniz haqqında məlumat:___________________________*
*İş yeriniz:_______________ Vəzifəniz:____________________*
*Stajınız:_______________________________________________*
*Hansı sahədə könüllülük etmək istərdiniz:*

- *Oxuculara stasionar və qeyri stasionar xidmət;*
- *Əhali arasında kitabxananın fəaliyyəti barədə məlumatların yayılması və rəy sorğularının keçirilməsinə kömək;*
- *Kitabxananın fəaliyyəti və iş rejimi haqqında məlumat kitabçaları, vizit kartlarının paylanılması;*
- *Sosial aksiyaların (sağlam həyat tərzinin, tolerantlığın təbliğinə yönəlmiş seminarlar, ekoloji tədbirlər və s.) keçirilməsində iştirak etmək;*
- *Kömpüter texnologiyalarından istifadədə çətinlik çəkən yaşlı oxuculara təlimlərin keçirilməsində iştirak;.*
- *Digərləri:_____________________________________*

*Dil bilikləriniz haqqında məlumat:*
*Azərbaycan*
*Rus*
*İngilis*
*Digərləri______________________________________________*
*Həftənin hansı günləri işləmək istərdiniz?*
*- Bazar ertəsi, Çərşənbə axşamı, Çərşənbə, Cümə axşamı, Cümə, Şənbə.*
*Günün hansı vaxtlarını işləmək istərdiniz:*

*Səhər;*
*Günorta.*
*Anketin doldurulma tarixi*_______________________________
*İmza*___________________________________________________
*Təşəkkür edirik! Qısa zamanda sizinlə əlaqə saxlayacağıq.*

*Qeyd edək ki, ərizə-anket formasını yerli qəzetlərdə, kitabxananın saytında, sosial şəbəkələrdə də yerləşdirə bilərsiniz.*

## Ədəbiyyat

Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 30 dekabr 2019-cu il // Azərbaycan.- 2019. – 31 dekabr. – S. 1.

"Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu, 9 iyun 2009-ci il // Azərbaycan. – 2009. – 29 iyul. – S. 2.

"Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə : Azərbaycan Respublikasının Qanunu, 24 aprel 2018-ci il // Azərbaycan . – 2018. – 16 may. – S.2

"Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə : Azərbaycan Respublikasının Qanunu, 22 fevral 2013-cü il // Azərbaycan. – 2013. – 28 mart.- S.2

***

Adilov, N. Könüllülük: uğur formulu / Nadir Adilov, Elvin Paşayev; red.: E.Hacıyev, D.Osmanlı; məsl.: S.Məmmədli, B.İslamov; Azərb. Turizm və Menecment Un-ti, Asan Könüllülər. – Bakı, 2017. – 99 s.

İsmayılov, A. Gənc könüllünün əl kitabçası / Asif İsmayılov, Sərvət Məhərrəmov; Avropanın Gənc Azərbaycanlı Dostları Assosiasiyası (AGADA). – Bakı: Adiloğlu, 2001. – 56 s.

***

Əhmədova, F. Operativlik və xeyirxahlıq missiyası: 5 dekabr Beynəlxalq Könüllülər Günüdür / Fərizə Əhmədova // Azərbaycan. – 2018. – 5 dekabr. – S.1; 6.

Ələddinqızı, N. 2020-ci il “Könüllülər İli” elan edildi: Dövlət başçısının bu Sərəncamı gənclərin fərdi inkişafına təkan vermək, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədi daşıyır / Nəzakət Ələddinqızı // Səs. – 2019. – 8 yanvar. – S.16.

Nərimanoğlu, M. Sərbəst fəaliyyətin təmənnasız forması : 5 dekabr Beynəlxalq Könüllülər Günüdür / Məhəmməd Nərimanoğlu // Azərbaycan .-2019.- 5 dekabr.- S.9.

## Rus dilində

Волонтерское движение в библиотеках России: консультация-обзор / КГБНУК «Дальневосточная гос. науч. б-ка», отд. научно-исследовательской и научно-метод. работы; сост. Е. Н. Бойнякшина. – Хабаровск, 2018. – 15 с.

Волонтёры и библиотека : грани сотрудничества : Сборник статей / Сост. Е.О.Шадская. – Очёр: МАУК МЦБ, 2017. – 108 с.

***

Кравченко, М. Библиотека и волонтёры: на пути социокультурного созидания / Марина Кравченко // Библиотечное дело. – 2016. – № 11. – С.40-43 (Социальное партнёрство).

Кравченко, М. Библиотека и волонтёры -совместный труд объединяет / Марина Кравченко // Соврем. б-ка. - 2014. – № 9. – С. 74 – 77 : фот. – (Опыт)

***

www.anl.az

**Mündəricat**

Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 3
Tərtibçidən ........ 5
Giriş ........ 6
Könüllü və könüllülük nədir? ........ 9
Kitabxanada könüllülərlə işin təşkili ........ 11
Nəticə ........ 25
Əlavələr ........ 26
Ədəbiyyat ........ 42

**Kitabxana və könüllülər - yeni imkanlar məkanı**

(metodik tövsiyələr)

***Nəşriyyat redaktoru***: *Mətanət İbrahimova*

***Korrektor:*** *Aygül Əliyeva*

**Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç. 57**
**E-mail: metodik@anl.az**
**URL: www.anl.az**

M.F.Axundov adına Azərbaycan
Milli Kitabxanasının mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur.
Sifariş: № 5
Çapa imzalanmışdır: 07.02.2020
Tirajı: 150
Pulsuz